***Bu susmaq yetər***

Dünyanın işinə matam, doğrusu,
Qurdun gözlərini çıraq eləyir.
Qanun keşiyində milyon oğrusu,
Qəpik oğrusunu dustaq eləyir.

Adil adamları tutsaq da daşa,
Dar gündə bizimlə dayandı qoşa.
Azğın fürsət tapıb keçəndə başa
Qəddimizi büküb yumaq eləyir.

Deməyin başıma gəlibdir hava,
Sakit bir güşədə qurmuram yuva.
Mərdin özünü də dərd qova-qova
Kürəyə saplanan bıçaq eləyir.

Haqqı təhvil verdik nə vaxtdan görən,
Əti kim ayırdı dırnaqdan görən?
Bütün günahları ayaqdan görən
Başını xatadan iraq eləyir.

Bu qorxaqlıq yetər, bu susmaq yetər,
Sabahımız gəlir bu gündən betər.
Valeh, ədalətdən yox xəbər-ətər
Hələ nə eləyir, nahar eləyir...

Biləsuvar

Allarlı V. Bu susmaq yetər : şeir // Ulduz. - 1991. - № 1. – S. 30-31.